# Ramazanda sələfin halı

SƏİD ƏLƏKBƏROV




İslamın Fəziləti
T.ME/ISLAMFEZILETI

# RAMAZANDA SƏLƏFİN HALI

# MÜNDƏRİCAT

Giriş ........ 1
Mübarək Ramazan ayını necə qarşılamalıyıq? ........ 2
1. Oruc tutmaq ........ 3
2. Gecə namazlarnı qılmaq ........ 4
3. Sədəqə vermək ........ 7
Yemək yedirtmək ........ 9
Oruc tutanlara iftar vermək ........ 11
4. Quran oxumağa çalışmaq ........ 12
I. Sələflər Quranı çox oxuyardılar ........ 12
II. Əməlisaleh sələflərin ikinci halı - onlar Quran oxuduqda ağlayardılar ........ 13
5. Günəş çıxana qədər namaz yerində oturmaq ........ 15
6. Etikafa daxil olmaq ........ 16
7. Ramazan ayında Ümrə etmək ........ 17
8. Qədr gecəsini axtarmaq ........ 17
9. Zikr, dua və Allahdan bağışlanma diləməyi çoxaltmaq. ........ 20
10. Ramazanda vaxtı hədər etmək ........ 22

| | |
|---|---|
| Kitabın adı: | Ramazanda sələfin halı |
| Toplayan: | Səid Ələkbərov |
| Redaktə edən: | Xumar Ərşadlı |
| Tarix: | 21. 03. 2022 |

# GİRİŞ

**Bismillər-Rahmənir-Rahim**

**Həmd aləmlərin Rəbbi olan Allaha məxsusdur. Şəhadət edirəm ki, Allahdan başqa haqq məbud yoxdur. O, təkdir və heç bir şəriki yoxdur. Şəhadət edirəm ki, Muhəmməd Allahın Elçisidir. Allahın salavatı və salamı Peyğəmbərimizə, onun ailəsinə, səhabələrinə və gözəl şəkildə onların yolunu təqib edənlərə olsun.**

Əziz müsəlman qardaş və bacılarım, sizi xoş hal ilə salamlayır və bu risaləni qəlbən sizə çatdırıram. Sizi Allah üçün sevirəm və Allahdan diləyirəm ki, O, bizi Öz kəramətli diyarında sizinlə cəm etsin və Öz Rəhməti ilə əhatə etsin.

Qarşıdan xeyir və bərəkət, Allahın mərhəməti ilə dolu Ramazan ayı gəlir. Bu münasibətlə səmimi şəkildə nəsihətimi sizlərə təqdim edirəm. Ümid edirəm ki, geniş bir qəlblə bunu məndən nəsihət olaraq qəbul edərsiniz.

Allah sizləri Ramazan ayını haqqı ilə yaşayıb Ona layiqincə ibadət edən qullarından etsin. Allah sizi qorusun. Amin!

# MÜBARƏK RAMAZAN AYINI NECƏ QARŞILAMALIYIQ?

Allah Təala buyurur:

شَهْرُ رَمَضَانَ ٱلَّذِىٓ أُنزِلَ فِيهِ ٱلْقُرْءَانُ هُدًى لِّلنَّاسِ وَبَيِّنَٰتٍ مِّنَ ٱلْهُدَىٰ وَٱلْفُرْقَانِ ۚ فَمَن شَهِدَ مِنكُمُ ٱلشَّهْرَ فَلْيَصُمْهُ

**“İnsanlara doğru yolu göstərən, bu yolun və (haqqı batildən) ayırd edənin açıq-aydın dəlilləri olan Quran Ramazan ayında nazil edilmişdir. Sizlərdən bu aya çatan şəxslər (həmin ayı) oruc tutmalıdırlar.”**[1]

Əziz qardaş və bacılarım!

Allah Təala Ramazan ayını digər aylardan bir çox xüsusiyyət və fəzilətlərlə xüsusiləşdirmişdir. Onlar aşağıda sadalanmışdır:

1. Oruclu insanın ağız qoxusu Allah yanında müşk qoxusundan daha gözəldir.
2. Mələklər iftara qədər oruc tutanlar üçün bağışlanma diləyərlər.
3. Ramazanda şeytanlar zəncirlənər.
4. Ramazanda Cənnətin qapıları açılar və Cəhənnəmin qapıları bağlanar.
5. Ramazanda Qədr gecəsi vardır ki, o gecə min aydan xeyirlidir. Kim o gecənin xeyrindən məhrum olarsa, artıq bütün xeyirlərdən məhrum olar.
6. Ramazanın son gecələrində oruc tutanlar bağışlanarlar.

---

[1] “Bəqərə”, 185

7. Allah Təala Ramazanda qullarını Cəhənnəmdən azad edir və bu Ramazanın hər gecəsi baş verir.

Əziz müsəlmanlar, əgər bu ayın özünə xas xüsusiyyətləri və fəzilətləri varsa, bəs biz bu ayı necə keçirməliyik?! Gecələr yatmayıb boş əyləncələrə dalaraq və Ramazanın gəlişindən məmnunluq duymayaraq bu ayı özümüz üçün çətinləşdirərəkmi? – bütün bunlardan Allaha sığınmalıyıq!

Əməlisaleh qul Ramazanda səmimi tövbə edər, bu ayı dəyərləndirər, əzmkarlıq göstərər və öz vaxtını saleh əməllərə sərf edər. Eyni zamanda öz ibadətlərini gözəlləşdirmək üçün Uca Allahdan yardım diləyər.

Əziz müsəlmanlar, saleh əməllərə yönəlin və Ramazanda bu əməlləri daha da doğrulayın. Saleh əməllərdən qeyd edilənlərə xüsusi önəm verin.

## 1. ORUC TUTMAQ

Əbu Hureyranın (Allah ondan razı olsun) rəvayət etdiyi hədisdə Allah Rəsulu ﷺ buyurur: **“Adəm övladının hər bir əməli artar. Bir yaxşılıq on mislindən yeddi yüzə qədər artar. Allah Azzə və Cəllə buyurur: Yalnız orucdan başqa, çünki o Mənim üçündür və Mən də onun mükafatını verəcəm. Qul şəhvətini, yeməyini mənim üçün tərk edir. Oruc tutan üçün iki sevinc vardır. Biri orucunu açdığı zaman sevinc halı, digəri isə Rəbbiylə qarşılaşacağı zaman sevinc halıdır. Oruc tutanın ağız**

**qoxusu Allah yanında müşk qoxusundan daha gözəldir.”**[2]

Əbu Hureyradan rəvayət olunan başqa bir hədisdə Allah Rəsulu ﷺ buyurmuşdur: **“Kim Ramazanı imanla və savabını Allahdan umaraq tutarsa, onun keçmiş günahları bağışlanar.”**[3]

Şəkk yoxdur ki, bu savaba nail olmaq sadəcə yemək və içməyi tərk etməklə olmur. Necə ki, Peyğəmbər ﷺ buyurur:

**“Kim yalan danışmaqdan və yalana əməl etməkdən əl çəkməzsə, yeməyini və içməyini tərk etməsinə Allahın ehtiyacı yoxdur.”**[4]

Əbu Hureyranın (Allah ondan razı olsun) rəvayət etdiyi başqa bir hədisdə Peyğəmbər ﷺ buyurur:

**“Oruc bir qalxandır. Sizdən biriniz oruc tutduğu zaman günah işlər görməsin və dava-dalaş salmasın. Əgər kimsə onu söysə və ya onunla dalaşmaq istəsə, qoy: "Mən orucam" – desin.”**[5]

## 2. GECƏ NAMAZLARINI QILMAQ

Əbu Hureyranın rəvayət etdiyi hədisdə Peyğəmbər ﷺ buyurur: **“Kim Ramazan gecələrini imanla, savabını**

---

[2] “Müslim”, 1151

[3] “Buxari”, 38. “Müslim”, 760

[4] “Buxar”, 1903

[5] “Buxari”, 1904. “Müslim”, 1151. “Nəsai”, 2216.

**Allahdan umaraq ibadətlə keçirərsə, onun keçmiş günahları bağışlanar.”**[6]

Allah Təala buyurur:

وَعِبَادُ ٱلرَّحْمَٰنِ ٱلَّذِينَ يَمْشُونَ عَلَى ٱلْأَرْضِ هَوْنًا وَإِذَا خَاطَبَهُمُ ٱلْجَٰهِلُونَ قَالُوا۟ سَلَٰمًا

**“Ər-Rəhmanın qulları o kəslərdir ki, onlar yer üzündə təvazökarlıqla gəzər, cahillər onlara (xoşagəlməz) bir söz dedikdə: “Salam!”- deyərlər.”**[7]

وَٱلَّذِينَ يَبِيتُونَ لِرَبِّهِمْ سُجَّدًا وَقِيَٰمًا

**“Onlar gecələrini Rəbbi üçün səcdədə və qiyamda keçirərlər.”**[8]

Həqiqətən, Peyğəmbər ﷺ və onun əshabı gecə namazına alışqan idilər. Aişədən (Allah ondan razı olsun) gələn rəvayətdə Abbullah bin Əbi Qeys deyir ki, Aişə (Allah ondan razı olsun) belə dedi: “Gecə namazını tərk etmə, çünki Allah Rəsulu ﷺ gecə namazını tərk etməzdi. Xəstələndiyi və ya yorğun olduğu zaman oturaraq qılardı.”[9]

Zeyd bin Əsləm atasından (Allah onların hər ikisindən razı olsun) rəvayət edərək deyir ki, Ömər bin Xəttab (Allah ondan razı olsun) gecə namazı qılardı, gecənin yarısından sonra və ya axırı isə öz əhlini namaza oyadardı. Onlara “namaz qılın” deyər və sonra bu ayəni oxuyardı:

---

[6] “Buxari”, 37. “Müslim”, 759

[7] “Furqan”, 63

[8] “Furqan”, 64

[9] Sünən Əbu Davud, Əhməd 1307. Şeyx Albani səhihləşdirib.

وَأۡمُرۡ أَهۡلَكَ بِٱلصَّلَوٰةِ وَٱصۡطَبِرۡ عَلَيۡهَاۖ لَا نَسۡـَٔلُكَ رِزۡقٗاۖ نَّحۡنُ نَرۡزُقُكَۗ وَٱلۡعَٰقِبَةُ لِلتَّقۡوَىٰ

**“Ailənə namaz qılmağı əmr et, özün də onu səbrlə yerinə yetir. Biz səndən ruzi istəmirik, (əksinə) sənə ruzi verən Bizik. Gözəl aqibət təqvaya bağlıdır.”**[10] (Bu əsəri İmam Malik öz “Muvatta” əsərində rəvayət etmişdir. Şeyx Albani əsərin isnadına səhih demişdir).

İbn Əbi Hətim deyir ki, Abdullah bin Ömər (Allah ondan razı olsun) bu ayəni oxudu: **“Məgər gecə saatlarını səcdə edərək və ayaq üstə duraraq ibadət içində keçirən, axirətdən çəkinən və Rəbbinin rəhmətinə ümid bəsləyən kimsə kafirlə eynidirmi?”** Dedi: “O, Osman bin Affandır (Allah ondan razı olsun)”. İbn Ömərin belə deməsi, möminlərin əmiri Osmanın gecələri çox namaz qılması və Quran oxuması səbəbi ilədir. O bəzən bir rükətdə Quranı (bütöv) oxumuşdur.”[11]

Alqamə bin Qeys rəvayət edərək deyir: “Bir gecə Abbdullah bin Məsudla (Allah ondan razı olsun) bir yerdə idik, gecənin əvvəlində oyandı və sonra namaza başladı. Məhəllə məscidində imamın oxuduğu kimi təkrarlamadan, tərtillə oxuyurdu, səsi ətrafdan eşidilərdi. Gecənin qaranlığı yox olana qədər (sübhə az qalmışa qədər) qılar, sonra da vitr ilə tamamlayardı.”[12] (İsnadı səhihdir).

---

[10] İmam Malik, “Muvatta” əsəri. “Ta-Ha”, 132

[11] Təfsir İbn Kəsir, “Zumər” surəsi, 9-cu ayə. İsnadı zəifdir. Bu rəvayətdə mübaliğə var.

[12] Təbərani “Mucəmul kəbir” 9/323 (9404). Raviləri doğrudur, isnadı səhihdir.

Səib bin Yəzid (Allah ondan razı olsun) rəvayət edir: “***Ömər bin Xəttab, Ubey bin Kəbə (onu “qarilərin seyyidi” adlandırırdılar) və Təmimə əd-Dəriyə insanlara on bir rükət namaz qıldırmağı əmr etdi. Səib deyir ki, qari bəzən yüz ayə oxuyardı, biz namazın uzunluğundan hətta əsaya söykənərdik və sübh namazına yaxın ayrılardıq.***”[13] (Şeyx Albani səhih demişdir).

Əziz müsəlmanlar, bir məsələyə diqqət yetirmək lazımdır. Müsəlman qardaşım, sənin üçün önəmli olan odur ki, təravih namazını imamla birlikdə tamamlayasan ki, sənə gecəni ibadətlə keçirənin savabı yazılsın. Əbu Zər əl-Ğifarinin (Allah ondan razı olsun) rəvayət etdiyi hədisdə Peyğəmbər ﷺ buyurmuşdur**:** “***Kim imam namazdan ayrılana qədər onunla birlikdə namaz qılarsa, ona gecəni ibadət etmiş savabı yazılar.***”[14]

## 3. SƏDƏQƏ VERMƏK

Allah Rəsulu ﷺ insanların ən səxavətlisi idi. Ramazanda isə səxavəti daha çox artar və xeyirxahlığı ilə əsən küləkdən daha çox səxavətli olardı. Bu haqda Buxari və Muslimdə gələn hədisdə Abdullah bin Abbas (Allah ondan razı olsun) rəvayət edərək belə deyir: ***“Allah Rəsulu ﷺ insanların ən səxavətlisi idi. Ramazanda Cəbrayıl ilə görüşən zaman***

[13] İmam Malik “Muvatta” əsəri, “Ramazanda namaz kitabı” fəsli. Şeyx Albani səhihləşdirmişdir.

[14] Əbu Davud, 1375. Tirmizi, 806. Nəsə, 1364. İbn Məcə, 1327. Əhməd, 21419. Səhihdir.

***daha çox səxavətli olardı. Ramazanın hər gecəsində Cəbrayıl Peyğəmbərlə görüşər və onunla birgə Quranı oxuyardı. Allah Rəsulu ﷺ xeyirxahlıq etməkdə əsən küləkdən daha səxavətli olardı.”***[15] (Buxari, Muslim).

Bir hədisdə Peyğəmbər ﷺ belə buyurur: ***“Ən əfzəl sədəqə Ramazanda olan sədəqədir.”***[16]

Zeyd bin Əsləm (Allah ona rəhmət etsin) atasından rəvayət edərək deyir: Ömər bin Xəttabı (Allah ondan razı olsun) belə deyərkən eşitdim: ***“Bir gün Allah Rəsulu ﷺ bizə sədəqə verməyi əmr etdi və bu da məndə malın olması ilə üst-üstə düşdü. Dedim ki, Əbu Bəkri qabaqlaycağım gün olsa, elə bu gün olacaq. Malımın yarısını gətirdim. Allah Rəsulu ﷺ mənə dedi ki, ailən üçün bir şey qaldımı? Dedim: Elə bu qədər də qaldı. (Bu zaman) Əbu Bəkr özündə olanın hamısını gətirdi. Allah Rəsulu ﷺ ona dedi: Ailən üçün bir şey qaldı? O, dedi: “Onları Allah və Onun Rəsuluna buraxdım.” (Bu zaman) Mən dedim: “Heç vaxt səni önə keçə bilmədim.”***[17] (Əbu Davud. Şeyx Albani həsən demişdir).

Ətbəut-tabiinlərdən olan Talha (Allah ona rəhmət etsin) bin Yahya bin Talha (Allah ondan razı olsun) rəvayət edərək deyir ki, bir dəfə nənəm Sudə binti Auf əl-Muriyyə (Allah ondan razı olsun) mənə bir şey danışdı. Talha bin Ubeydullahın izar (libas, parça, çarşab) dükanı var idi. O,

---

[15] Buxari, 6. Müslim, 2308

[16] Tirmizi, 663. Şeyx Albani “Daiful Cəmi”, 1023. Zəifdir.

[17] Əbu Davud, 1678. Şeyx Albani həsən demişdir.

(nənəm) dedi: Bir gün Talha mənim yanıma gəldi, taqətdən düşmüş halda idi. Dedim: “Səni üzü kədərli görürəm nə olub?” Dedim ki, nə olub sənin halına? Məndən tərəddüd etdiyin bir şey varmı ki, sənə yardımçı olum? O, dedi: “Xeyr, sən müsəlman olaraq gözəl bir dostsan.” Dedim: “Sənin halına nə olub?” Dedi ki: “Mənim mal-dövlətim çoxalıb və o mənə sıxıntı verir.” Dedim ki: “Narahat olma, onu bölüşdür.” Nənəm dedi: “O, malından bir dirhəm qalmayana qədər onu bölüşdürdü.” Talha bin Yahya deyir ki, Talhanın (yəni babasının) xəzinədarından soruşdum: “Onun nə qədər mal-dövləti olub?” O, dedi: “Dörd yüz min dirhəmi olub”.[18]

Ey müsalman qardaşım! Ramazanda sədəqə verməyin özünə xas üstünlükləri və xüsusiyyətləri var. Odur ki, ona tələs və bacardığın qədər sədəqə verməyə həris ol. Sədəqənin bir çox növləri var. Onlardan:

## YEMƏK YEDİRTMƏK

Allah Təala buyurur:

وَيُطْعِمُونَ ٱلطَّعَامَ عَلَىٰ حُبِّهِۦ مِسْكِينًا وَيَتِيمًا وَأَسِيرًا ۝ إِنَّمَا نُطْعِمُكُمْ لِوَجْهِ ٱللَّهِ لَا
نُرِيدُ مِنكُمْ جَزَآءً وَلَا شُكُورًا ۝ إِنَّا نَخَافُ مِن رَّبِّنَا يَوْمًا عَبُوسًا قَمْطَرِيرًا ۝ فَوَقَىٰهُمُ
ٱللَّهُ شَرَّ ذَٰلِكَ ٱلْيَوْمِ وَلَقَّىٰهُمْ نَضْرَةً وَسُرُورًا ۝ وَجَزَىٰهُم بِمَا صَبَرُوا۟ جَنَّةً وَحَرِيرًا

**“Onlar özlərinin istədikləri şeylərdən kasıba, yetimə və əsirə də verərlər. (və deyərlər): “Biz sizi yalnız Allahın Üzü xatirinə yedirdirik və sizdən nə əvəzini, nə də minnətdarlıq gözləmirik! Əslində, biz, Rəbbimizdən gələ bilən çox kəskin və ağır bir gündən ehtiyat edirik!”**

---

[18] Əbu Nəim, “Hilyətul Əvliyə”.

**Bunun əvəzində Allah da onları həmin günün şərindən qoruyar və onlara gözəllik və sevinc nəsib edər və onlara səbr etdiklərinə görə Cənnəti bəxş edər və (orada geyəcəkləri) ipəklə mükafatlandırar."**[19]

Həqiqətən, əməlisaleh sələflər insanlara yemək yedirməyə həris idilər və onu bir çox nafilə ibadətlərdən önə çəkərdilər. İstər qarnı ac olan birini doydurmaq olsun, yaxud əməlisaleh bir müsəlman qardaşını yedirtmək olsun - yemək yedirtməkdə kasıbın olması şərt deyil. Abdullah bin Sələmin (Allah ondan razı olsun) rəvayət etdiyi hədisdə Allah Rəsulu ﷺ buyurur: ***"Ey insanlar! Salamı yayın, yemək yedirin, qohumluq bağını qoruyun və insanlar yatan zaman gecəni namaz qılın ki, əminliklə Cənnətə daxil olasınız."***[20]

Əbu Cəfər Muhəmməd bin Əli bin Hüseyn deyir ki, yoldaşlarımdan on nəfər dəvət edib istədikləri yeməyi onlara yedirməyim, mənə 10 İsmayıl övladını azad etməkdən daha sevimlidir.[21]

Sələflərdən bəziləri oruclu olduqları halda iftarını başqasına verər, qardaşlarına yemək yedirər və onlara xidmət edərdilər. Onlardan Abdullah bin Ömər, Davud ət-Tai, Malik bin Dinar, Əhməd bin Hənbəl, Həsən əl-Bəsri və Abdullah bin Mübarəki nümunə gətirmək olar. İbn Ömər miskinlər və yetimlərlə birgə iftar edərdi. Bəzən isə biləndə

---

[19] "İnsan, 8-12.

[20] Tirmizi, 2485. İbn Məcə, 1334. Səhihdir.

[21] İbn Rəcəb, "Məcmu Rasəil" (4/41)

ki, ailəsi onları yeməkdən geri qaytarıb, o, da həmin gecə yemək yeməzdi.

Tabinlərdən olmuş Əbu Səvvar əl-Adəvi (Allah ona rəhmət etsin) deyir ki, bəni Adiy qəbiləsindən olan adamlar bu məsciddə namaz qılırdılar. Onlardan heç biri heç vaxt tək iftar etməzdi, kimisə tapsalar, onunla birgə yeyərdilər, tapmadıqda isə yeməklərini məscidə gətirər, insanlar da onlarla birgə yeyərdi[22].

Yemək yedirmək bir sıra digər ibadətlərə də yol açır: yemək yedirən qardaşlara qarşı dostluq və sevgi hisləri oyanır. Yemək yedirdiyin qardaşlarının dostluğunu və sevgisini qazanırsan. Bu da Cənnətə daxil olmaq üçün səbəbdir. Əbu Hureyranın (Allah ondan razı olsun) rəvayət etdiyi hədisdə Peyğəmbər ﷺ buyurmuşdur: ***"İman etmədikcə Cənnətə daxil olmazsınız. Bir-birinizi sevmədikcə də kamil iman etmiş olmazsınız."***[23]

Yemək yedirmək müsəlmanlara itaətdə yardım etməklə savab qazanmağa və salehlərlə birgə oturmağa yol açır.

## ORUC TUTANLARA İFTAR VERMƏK

Bu haqda Zeyd bin Xalidin (Allah ondan razı olsun) rəvayət etdiyi hədisdə Peyğəmbər ﷺ buyurur: ***"Kim bir oruc tutana iftar verərsə, oruc tutanın savabından heç bir savab***

[22] İbn Rəcəb, "Ravai ət-Təfsir" (176)

[23] Müslim, 54.

***əskilmədən onun (oruc tutanın) savabı qədər ona savab vardır.”***[24]

## 4. QURAN OXUMAĞA ÇALIŞMAQ

Əziz qardaş və bacılarım, burada əməlisaleh sələflərin iki halını xatırlatmaq istəyirəm:

I. Quranı çox oxumaları
II. Quran oxuduqda və ya onu dinlədikdə Allah üçün xuşu içində olmaları və xəlvətdə ağlamaları

### I. SƏLƏFLƏR QURANI ÇOX OXUYARDILAR

Ramazan ayı Quran ayıdır. Müsəlman qula Quranı çox oxumaq yaraşar və Quranı çox oxuması lazımdır. Sələflərin halı Allahın Kitabına qarşı diqqət göstərmək idi. Ramazan ayında Cəbrayıl (Allahın ona salamı olsun) Peyğəmbərlə ﷺ birgə Quran oxuyardı. Osman bin Affan (Allah ondan razı olsun) Ramazanın hər günü Quranı bir dəfə xətm edərdi. Sələflərdən bəziləri Ramazanda hər üç gecədən bir, bəziləri hər yeddi gecədən bir, bəziləri isə hər on gecədən bir xətm edərdilər. Onlar Quranı namaz daxilində və namazdan kənarda oxuyardılar. İmam Şafi (Allah ona rəhmət etsin) Ramazanda Quranı 60 dəfə xətm edərdi, namazlarda oxuduğundan əlavə də oxuyardı. Tabiinlərdən olan Qatədə Quranı daim yeddi günə xətm edərdi. Ramazanda üç günə xətm edər və axır on gündə isə hər gün xətm edərdi. Yenə tabinlərdən olan Zuhri Ramazan ayı daxil olduqda hədis

---

[24] Tirmizi, 807. Nəsai, 3180. İbn Məcə 1746. Şeyx Albani səhih demişdir.

oxumaqdan və elm məclislərindən uzaqlaşaraq Quran oxumağa yönələrdi. Sufyan əs-Sövri Ramazan ayı daxil olduqda bütün nafilə ibadətləri tərk edib məhz Quran oxumağa yönələrdi. Böyük alimlərdən olan İbn Rəcəb deyir ki, Quranı üç gündən az oxumaq haqqında varid olmuş qadağa, onun davamiyyətli olmasına aiddir. Amma Ramazan ayı kimi fəzilətli vaxtlarda və Məkkə şəhəri kimi fəzilətli məkanlarda, oranın sakinlərindən başqası ora daxil olduqda, zamanın və məkanın fəzilətindən yararlanaraq orada Quran oxumağı çoxaltması müstəhəbdir. Bu, Əhməd bin Hənbəlin və İshaq bin Rahaveyhin və digər sələf imamlarının sözüdür. Sələflərin əməlləri də məhz buna dəlalət edir.[25]

## II. ƏMƏLİSALEH SƏLƏFLƏRİN İKİNCİ HALI - ONLAR QURAN OXUDUQDA AĞLAYARDILAR

Sələflər Quranı şeir kimi, təfəkkür etmədən oxumazdılar. Əksinə onlar Allahın Kəlamından təsirlənər və qəlbləri titrəyərdi. Buxaridə gələn hədisdə Abdullah bin Məsud (Allah ondan razı olsun) deyir ki, bir dəfə Allah Rəsulu ﷺ mənə belə dedi: “Mənə Quran oxu! Mən dedim ki, Quran sənə nazil olduğu halda, sənə mənmi oxuyum?! O, isə dedi: “Mən onu başqasından dinləməyi sevirəm.” Mən ona Nisə surəsini oxudum, (bu ayəyə) çatanda -

فَكَيْفَ إِذَا جِئْنَا مِن كُلِّ أُمَّةٍ بِشَهِيدٍ وَجِئْنَا بِكَ عَلَىٰ هَٰٓؤُلَآءِ شَهِيدًا

**“Biz hər ümmətdən bir şahid gətirəcəyimiz və səni də onlara şahid gətirəcəyimiz zaman onların halı necə**

[25] “Lətaiful-Məarif”, 171

**olacaqdır”**[26] - o, dedi: “Dayan!” Mən çevriləndə gördüm ki, onun gözlərindən yaş axır.”[27]

Beyhəqinin rəvayət etdiyi hədisdə Əbu Hureyra (Allah ondan razı olsun) deyir ki, bu ayələr nazil olduqda -

﴿أَفَمِنْ هَٰذَا ٱلْحَدِيثِ تَعْجَبُونَ﴾﴿وَتَضْحَكُونَ وَلَا تَبْكُونَ﴾

***“Siz bu Kəlama təəccüb edirsiniz?” “Gülürsünüz, heç ağlamırsınız.”***[28] Bu zaman Suffə[29] əhli ağladı, hətta göz yaşları onların yanaqlarından süzülürdü. Allah Rəsulu ﷺ onların bu üzüntüsünü eşitdikdə onlarla birlikdə ağladı və onun ağlaması ilə biz də ağladıq. Allah Rəsulu ﷺ buyurdu ki: “Allah qorxusundan ağlayan kimsə Cəhənnəmə girməz.”[30]

Abdullah bin Ömər (Allah ondan razı olsun) “Mutaffifin” surəsini oxuyarkən bu ayəyə çatdıqda -

يَوْمَ يَقُومُ ٱلنَّاسُ لِرَبِّ ٱلْعَٰلَمِينَ

**“O gün insanlar aləmlərin Rəbbinin hüzurunda duracaqlar”**[31] - ağladı, hətta ağlamaqdan yerə çökdü və oxumağa davam edə bilmədi. Ətbəut-tabiinlərdən olan Muzəhim bin Zufər deyir ki, biz Sufyən əs-Sövri ilə birgə məğrib namazını qıldıq. O, oxumağa başladı və bu ayəyə çatdıqda -

---

[26] “Nisə”, 41

[27] Buxari, 4582

[28] “Nəcm”, 59-60

[29] Peyğəmbərin ﷺ zamanında onun məscidində qalan bəzi səhabələr

[30] Beyhəqi, “Şuəbul İmən”

[31] “Mutaffifin”, 6

إِيَّاكَ نَعْبُدُ وَإِيَّاكَ نَسْتَعِينُ

**“Biz yalnız Sənə ibadət edirik və yalnız Səndən kömək diləyirik”**[32] **-** oxumağı kəsilənə qədər ağladı, sonra əvvələ qayıdaraq “Əlhəmdulilləh” kəlməsindən oxudu.

Yenə ətbəut-tabiinlərdən olan İbrahim bin Əşas deyir: “Gecələrin birində Fudeyl bin İyadın “Muhəmməd” surəsini oxuduğunu eşitdim. O, bu ayəni təkrar-təkrar oxuyur -

وَلَنَبْلُوَنَّكُمْ حَتَّىٰ نَعْلَمَ ٱلْمُجَٰهِدِينَ مِنكُمْ وَٱلصَّٰبِرِينَ وَنَبْلُوَا۟ أَخْبَارَكُمْ

**“And olsun ki, Biz aranızdakı mücahidləri və səbr edənləri ayrıd edib üzə çıxarmaq üçün sizi mütləq sınayacaq və barənizdəki xəbərləri də yoxlayacağıq”**[33] - və təkrar-təkrar bu sözləri deyərək ağlayırdı: “Barəmizdəki xəbərləri yoxlayacaqsan. Əgər barəmizdə olan xəbərləri yoxlasan, qüsurlarımızı və xəlvətimizi ortaya çıxararsan, əgər barəmizdəki xəbərləri yoxlasan, bizi həlak edib əzab verərsən.”[34]

## 5. GÜNƏŞ ÇIXANA QƏDƏR NAMAZ YERİNDƏ OTURMAQ

Peyğəmbər ﷺ fəcr namazını qıldıqdan sonra günəş doğana qədər namaz qıldığı yerdə oturardı. Bu haqda Cabir bin Səmurə (Allah ondan razı olsun) rəvayət edərək deyir: ***“Peyğəmbər ﷺ sübh namazını qıldığı zaman, günəş yaxşı***

---

[32] “Fatihə”, 5

[33] “Muhəmməd”, 31

[34] Əbu Nəim, “Hilyətul əvliyə”

***doğana qədər namaz qıldığı yerdə oturardı"***[35]. Tirmizidə gələn hədisdə Ənəs bin Malik (Allah ondan razı olsun) rəvayət edir ki, Peyğəmbər ﷺ demişdir: ***"Kim sübh namazını camaatla qılarsa, sonra günəş doğana qədər (olduğu yerdə) oturub Allahı zikr edər, sonra da iki rükət namaz qılarsa, onun üçün Həcc və Ümrə savabı kimi tam, tam, tam olaraq savab yazılar."***[36]

*Bu, bütün günlərə aiddirsə, bəs Ramazan günlərində necə olmasın?*

## 6. ETİKAFA DAXİL OLMAQ

Peyğəmbər ﷺ Ramazanın son on gününü etikafa[37] girərdi. Vəfat etdiyi ilin Ramazan ayında isə iyirmi gün etikaf etmişdir. Bu haqda Buxaridə gələn hədisdə Əbu Hureyra (Allah ondan razı olsun) rəvayət edərək deyir: ***"Peyğəmbər ﷺ hər Ramazanda on gün etikaf edərdi. Lakin vəfat etdiyi ildə isə iyirmi gün etikaf etmişdir."***[38]

Etikaf elə ibadətlərdəndir ki, özündə Quran oxumağı, namaz qılmağı, zikr etməyi, dua etməyi və digər ibadətləri cəm etmişdir. Etikafı təcrübədən keçirməyən kəs üçün onu etmək ağır və məşəqqətlidir. O, Allahın asanlaşdırdığı kəslərə asan gəlir. Kim saleh niyyət və doğru-düzgün bir əzmkarlıqla etikaf etməyi qarşısına hədəf qoyarsa, Allah

---

[35] Müslim, 670

[36] Tirmizi, 586. Şeyx Albani səhihləşdirmişdir.

[37] Allaha yaxınlaşmaq üçün özünü ibadətə yönəltmək

[38] Buxari, 2044

ona yardım edər. Etikaf Ramazanın son on günündə Qədr gecəsini axtarmaqla gerçəkləşir. Etikaf gizli əməllərdəndir. Etikaf edən özünü Allaha itaət etməyə və Onu zikr etməyə yönəldir, özünü onu məşğul edən bütün digər məşğuliyyətlərdən ayırır, Rəbbinə yaxınlaşaraq, Ona yönələrək qəlbi ilə etikaf edir. Etikaf edəni Allahdan və Onun razılığından başqa heç bir şey düşündürməz.

## 7. RAMAZAN AYINDA ÜMRƏ ETMƏK

Bu haqda Peyğəmbərdən ﷺ hədis sabit olmuşdur. Abullah bin Abbas (Allah ondan razı olsun) rəvayət edərək deyir: Peyğəmbər ﷺ buyurur: ***“Ramazanda Ümrə etmək, Həcc etmək kimidir.”*** Başqa bir rəvayətdə isə: ***“Mənimlə Həcc etmiş kimidir.”***[39]

## 8. QƏDR GECƏSİNİ AXTARMAQ

Allah Təala buyurur:

إِنَّآ أَنزَلْنَٰهُ فِى لَيْلَةِ ٱلْقَدْرِ وَمَآ أَدْرَىٰكَ مَا لَيْلَةُ ٱلْقَدْرِ لَيْلَةُ ٱلْقَدْرِ خَيْرٌ مِّنْ أَلْفِ شَهْرٍ
تَنَزَّلُ ٱلْمَلَٰٓئِكَةُ وَٱلرُّوحُ فِيهَا بِإِذْنِ رَبِّهِم مِّن كُلِّ أَمْرٍ سَلَٰمٌ هِىَ حَتَّىٰ مَطْلَعِ ٱلْفَجْرِ

**“Həqiqətən Biz Quranı Qədr gecəsində nazil etdik! Sən haradan biləsən ki, Qədr gecəsi nədir? Qədr gecəsi min aydan xeyirlidir. O gecə Rəbbinin izni ilə mələklər və**

---

[39] Buxari, 1863

**Ruh (Cəbrayıl) hər işə görə yerə enərlər. O gecə sübh açılandadək əmin-amanlıq olur”.**[40]

Əbu Hureyranın (Allah ondan razı olsun) rəvayət etdiyi hədisdə Peyğəmbər ﷺ demişdir: ***“Kim Qədr gecəsini imanla və savabını Allahdan umaraq ibadətlə keçirərsə, onun keçmiş günahları bağışlanar.”***[41]

Peyğəmər ﷺ Qədr gecəsini axtarar və əshabına da onu axtarmağı tövsiyyə edərdi. O, Ramazanın son on gecəsində Qədr gecəsinin savabına nail olmaları üçün ailəsini də oyadardı.

İmam Əhmədin “Müsnəd” əsərində gələn hədisdə Ubadə bin Samit (Allah ondan razı olsun) rəvayət edərək deyir: Peyğəmbər ﷺ buyurur: ***“Kim Qədr gecəsini təmənni edərək ibadətlə keçirərsə, sonra o, Qədr gecəsinə müvəffəq olarsa, onun keçmiş və gələcək günahları bağışlanar.”*** [42] Bu hədisin bənzəri Nəsaidə keçir. Peyğəmbər ﷺ buyurub: ***“Kim Qədr gecəsini imanla, savabını da Allahdan umaraq ibadətlə keçirərsə, onun keçmiş günahları bağışlanar.”***[43] (Hədisin isnadı Buxari və Muslimin şərtlərinə uyğun şəkildə səhihdir).

Bəzi səhabə və tabiinlərdən varid olmuşdur ki, onlar Ramazanın son 10 günlərində Qədr gecələri üçün çimib

---

[40] “Qədr”, 1-5

[41] Buxari, 1901. Müslim, 760

[42] Əhməd, 22713. Şueyb Arnavut “Təxricul Musnəd” 22713 həsəndir. “Keçmiş” sözü yoxdur.

[43] Nəsai, 2192, 2193

ətirlənərdilər. Çünki Qədr gecəsinə Allah özü dəyər verib onun qədrini və şənini ucaldıb.

Ey ömrünü hədər işlərlə zay edən müsəlman, Qədr gecəsində vaxtını dəyərləndir. Çünki gedən vaxt, ömürdən gedir. Qədr gecəsində edilən əməllər içində Qədr gecəsi olmayan min aydan xeyirlidir. Kim Qədr gecəsinin xeyrindən məhrum olarsa, artıq bir çox xeyirlərdən məhrum olar.

Qədr gecəsi Ramazanın son on günündə, son on günün tək gecələrində gizlidir. Bizə Qədr gecəsinin iyirmi yeddinci gecə olduğuna dair ümid verilmişdir. Muslimin rəvayət etdiyi hədisdə Ubey bin Kəb (Allah ondan razı olsun) belə deyir**:** ***“Vallahi mən bilirəm o hansı gecədir. Allah Rəsulu ﷺ bizə o gecəni ibadətlə keçirməyimizi əmr etdi. O, iyirmi yeddinci gecədir.”***[44] Ubey bin Kəb and içərək deyir ki, Allah Rəsulu ﷺ bizə Qədr gecəsinin əlamətlərini və xüsusiyyətlərini xəbər vermişdir. O əlamətlərdən biri Qədr gecəsinin səhəri günəşin şüasız doğmasıdır.

Aişə (Allah ondan razı olsun) rəvayət edərək deyir ki, mən dedim: “Ey Allahın Rəsulu! Qədr gecəsinə müvəffəq olsam, necə dua edim?” Peyğəmbər ﷺ dedi ki, de: ***“Allahım, həqiqətən, Sən əvf edənsən! Əvf etməyi sevirsən. Məni əvf et”***[45].

---

[44] Müslim, 762

[45] Tirmizi, 3513. Nəsai, 7712. Əhməd, 25497. Şeyx Albani səhihləşdirmişdir.

## 9. ZİKR, DUA VƏ ALLAHDAN BAĞIŞLANMA DİLƏMƏYİ ÇOXALTMAQ.

Əziz müsəlmanlar! Ramazan ayının günləri və gecələri fəzilətli vaxtlardır. Bu vaxtları, xüsusən də duaların icabət saatlarını zikr və dua etməklə dəyərləndirin. Duanın qəbul olma vaxtlarından:

1- Orucu açarkən edilən dua: oruc tutanın iftar edərkən etdiyi dua geri çevrilməz. Abdullah bin Amrın (Allah ondan razı olsun) rəvayət etdiyi hədisdə Peyğəmbər ﷺ buyurmuşdur: ***"Həqiqətən oruc tutan iftar etdiyi zaman, duası geri çevrilməz."***[46]
2- Gecənin axır üçdə biri edilən dua: həmin vaxt Rəbbimiz Azzə və Cəllə dünya səmasına enərək deyər: ***"İstəyən varmı? Onun istəyini verim. Bağışlanma diləyən varmı? Onu bağışlayım."***[47]
3- Sübh çağı Allaha edilən istiğfar:

Allah Təala buyurur:

وَبِٱلْأَسْحَارِ هُمْ يَسْتَغْفِرُونَ

**"Sübh çağı onlar bağışlanma diləyirlər"**[48].

Əziz müsəlman qardaş və bacılarım, bu Cənnət bağçalarını dolaşdıqdan sonra, saleh əməllərin kölgəsində kölgələnməliyik. Burada mühüm bir məsələni nəzərinizə çatdırmaq istəyirəm. Bilirsiniz o nədir? İxlas. Bəli, ixlas.

---

[46] İbn Məcə, 1753. Həsəndir.

[47] Buxari, 1145. Müslim, 758

[48] "Zariyət", 18

Neçə-neçə oruc tutanlar var ki, onlara oruclarından aclıq və susuzluqdan başqa bir şey qalmayıb və neçə-neçə gecə ibadət edənlər var ki, onlara gecə ibadətindən yuxusuzluqlarından və yorğunluqlarından başqa bir şey qalmayıb. Allah qorusun! Özünüzü bu hallardan qoruyun.

Beləliklə, biz Peyğəmbərin ﷺ orucu ixlasla tutmaq məsələsində təkid etdiyini gördük. Çünki o buyurur ki, ***"Kim orucu iman etməklə və savabını Allahdan ummaqla tutarsa..."*** Yəni, oruc tutan şəxs üçün bağışlanma savabı vardır.

## RAMAZANDA VAXTI HƏDƏR ETMƏK

Əziz müsəlmanlar, düşünürəm ki, diqqətinizə nələrisə çatdıra bildim. Sizi vaxtınızı dəyərləndirməyə təşviq edirəm. Bilin ki, vaxtınız gedir. Amma xüsusilə Ramazanda təhlükəli olan bir məsələni diqqətinizə çatdırmaq istəyirəm ki, bu da vaxtı zay etmək, Allaha ibadət etməli olduğumuz vaxtı səmərəsiz əməllərə sərf etməkdir. Həqiqətən, bu, Allahın rəhmətindən, İlahi bir nemətdən üz döndərmək və qəflətdə olmaqdır. Allah Təala buyurur:

وَمَنْ أَعْرَضَ عَن ذِكْرِى فَإِنَّ لَهُۥ مَعِيشَةً ضَنكًا وَنَحْشُرُهُۥ يَوْمَ ٱلْقِيَٰمَةِ أَعْمَىٰ قَالَ
رَبِّ لِمَ حَشَرْتَنِىٓ أَعْمَىٰ وَقَدْ كُنتُ بَصِيرًا قَالَ كَذَٰلِكَ أَتَتْكَ ءَايَٰتُنَا فَنَسِيتَهَا ۖ وَكَذَٰلِكَ
ٱلْيَوْمَ تُنسَىٰ وَكَذَٰلِكَ نَجْزِى مَنْ أَسْرَفَ وَلَمْ يُؤْمِنۢ بِـَٔايَٰتِ رَبِّهِۦ ۚ وَلَعَذَابُ ٱلْءَاخِرَةِ
أَشَدُّ وَأَبْقَىٰٓ

**“Kim Mənim Zikrimdən üz döndərərsə, onun güzəranı sıxıntılı olacaq və Biz Qiyamət günü onu kor kimi hüzurumuza gətirəcəyik”. “O deyəcək: Ey Rəbbim! Mən dünyada görürdümsə, indi nə üçün məni kor olaraq gətirdin?”. “Allah deyəcək: Elədir! Çünki sənə ayələrimiz gəldi, sən isə onları unutdun. Bu gün də sən beləcə unudulacaqsan!”. “Biz həddi aşanı və Rəbbinin ayələrinə inanmayanı belə cəzalandırırıq. Axirət əzabı isə, daha şiddətli və daha sürəklidir”**[49].

İnsan özü də sıxıntılı halda olur, müsəlman gənclərin halını gördükdə də qəlbi sıxılır. O gənclər ki, mübarək Ramazan gecələrində Allahın qadağan etdiyi əməlləri açıq-aşkar şəkildə işləyir və Ona açıq-aşkar şəkildə asi olur. Bəli,

---

49 “Ta-Ha”, 124-127

həqiqətən, bir müsəlman digər müsəlmanların, gənc müsəlmanların öz vaxtını Allaha itaətdən başqa şeylərə sərf etməsindən narahatlıq duymalıdır.

Özünün və müsəlman qardaşlarının səadət yolunda olması üçün onları dəvət et və onlar üçün dua et.

*Allahın salavatı və salamı Peyğəmbərimizə ﷺ ailəsinə, səhabələrinə və onların yolunu gözəl şəkildə gedənlərin üzərinə olsun.*

İslamın Fəziləti
T.ME/ISLAMFEZILETI